# DAXİLİ KEYFİYYƏT TƏMİNATI ÜZRƏ KOMİSSİYANIN ƏSASNAMƏSİ

| Sənədi tərtib edən şöbə | Redaksiya | Qeydiyyat nömrəsi | Qüvvəyə minmə tarixi | Qüvvədə olma müddəti |
|---|---|---|---|---|
| İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsi | 1-ci | H/34-19052025DKTK/Ə | 19.05.2025-cu il | 18.05.2028-cı il |
| **Əsasnamənin Bəyannaməsi** | | | | |
| **Məqsəd** | Komissiyanın əsas məqsədi Universitetdə keyfiyyət siyasətinin və keyfiyyət fəaliyyəti üzrə rəhbərliyinin müvafiq prinsiplərinə əsaslanaraq ATU fəaliyyətində uyğunsuzluqları aşkar edib, onların aradan qaldırılmasına dair icrası vacib olan tövsiyələr vermək, keyfiyyət mədəniyyətini tənzimləmək. | | | |
| **Fəaliyyət dairəsi** | Universitetin struktur bölmələrinin fəaliyyətinin (maliyyə fəaliyyəti istisna olmaqla) dəyərləndirilməsi. | | | |

**Mündəricat**

**Ümumi müddəalar.........................................................................3**
**Normativ istinadlar......................................................................3**
**Terminlər və təriflər......................................................................4**
**Komissiyanın funksiyaları..............................................................4**
**Komissiyanın vəzifələri.................................................................5**
**Komissiyanın hüquqları.................................................................5**
**Məsuliyyət.....................................................................................5**
**Komissiyanın tərkibi və fəaliyyətinin təşkili................................6**
**Yekun müddəalar.........................................................................6**
**Razılaşdırma vərəqi......................................................................6**
**Sənəddə dəyişikliklərin edilməsi barədə qeydiyyat vərəqəsi.....7**

1. **Ümumi müddəalar**

Bu əsasnamə Daxili keyfiyyət təminatı üzrə komissiyanın (bundan sonra - Komissiya) təşkil edilməsinin və fəaliyyətinin hüquqi əsaslarını müəyyən edir.
Komissiya Azərbaycan Tibb Universitetinin  təhsil, elm, müalicə, əməkdaşlıq üzrə keyfiyyət siyasətini, akkreditasiya və dünya reytinqlərinin meyarlarına uyğunluğunu müəyyən edir.
Komissiya ictimai əsaslarla fəaliyyət göstərir.
Komissiya Universitetin Elmi Şurasının qərarına əsasən rektorunun əmri ilə yaradılır və ləğv edilir.
Komissiya Universitetin İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin (bundan sonra Şöbə) birbaşa tabeçiliyində fəaliyyət göstərir.
Komissiya bu əsasnamədə nəzərdə tutulan vəzifə və funksiyalarını yerinə yetirərkən ATU-nun digər struktur vahidləri ilə qarşılıqlı fəaliyyət göstərir.
Əsəsnamə Universitetin Elmi Şurasının qərarına əsasən rektorun əmri ilə təsdiq olunur.

2. **Normativ istinadlar**

BS ISO 9000:2015 - Keyfiyyəti idarəetmə sistemləri. Əsasnamə və lüğət;
BS ISO 9001:2015 - Keyfiyyəti idarəetmə sistemləri. Tələblər;
BS ISO 9004:2009 - Keyfiyyəti idarəetmə sistemləri. Dayanıqlı İnkişaf;
BS ISO 19011:2011 - Keyfiyyəti idarəetmə sistemləri. İdarəetmə sistemlərinin auditi üçün təlimatlar;
ISO 21001:2018 - Təhsil təşkilatları - Təhsil təşkilatları üçün idarəetmə sistemləri - İstifadə üçün rəhbəredici göstərişlərlə birlikdə tələblər;
01.02.1999 tarixli № 618-IQ  Azərbaycan Respublikasının Əmək Məcəlləsi;
26.06.1997 tarixli №360-IQ “Əhalinin sağlamlığı haqqında” Azərbaycan Respublikasının Qanunu;
12.06.2009 tarixli №833-IIIQ “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu ;
14.06.2016 tarixli № 271-VQ  “Elm haqqında” Azərbaycan Respublikasının Qanunu;
30.12. 2021-ci il tarixli № 471-VIQ “Media haqqında” Azərbaycan Respublikasının Qanunu;
Azərbaycan Respublikası Daxili İşlər Nazirinin 2001-ci il 25 may tarixli 85 nömrəli əmri ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi Qaydaları”;
Azərbaycan Respubılikası Nazirlər Kabinetinin 08.06.2010-cu il tarixli 108 №-li Qərarı Ilə təsdiq edilmiş “Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyası Qaydası”;
Azərbaycan Tibb Universitetinin Nizamnaməsi;
Azərbaycan Tibb Universitetinin Elmi Şurasının 25 iyun 2023-cü il tarixli qərarına əsasən Azərbaycan Tibb Universitetinin rektorunun 4 iyul 2023-cü il tarixli 525 №

əmri ilə təsdiq edilmiş Azərbaycan Tibb Universitetində keyfiyyət fəaliyyəti üzrə rəhbərlik;
Azərbaycan Tibb Universitetinin digər lokal sənədləri.

## 3. Terminlər və təriflər

| Terminlər | Təriflər |
|---|---|
| ATU | Azərbaycan Tibb Universiteti |
| KİS (keyfiyyətin idarə olunması sistemi) | Keyfiyyətə ümumi rəhbərlik üçün zəruri olan təşkilati quruluşun, metodikaların, proseslərin və resursların məcmusu. Fəaliyyəti daim yaxşılaşdırmaq, təşkilatın milli və dünya bazarlarında rəqabət qabiliyyətini artırmaq üçün nəzərdə tutulmuşdur, istənilən təşkilatın rəqabət qabiliyyətini müəyyənləşdirir. |
| Keyfiyyət fəaliyyəti üzrə rəhbərlik (KR) | Təşkilatın keyfiyyət menecmenti sistemini təyin edən sənəd. |
| Sənədləşdirilmiş keyfiyyət proseduru (SKP) | Sənədlərin uyğunluğunun təhlili, onların uçotu və qüvvədə saxlanması, yayılması və maraqlı tərəflərin diqqətinə çatdırılması üzrə işlər kompleksi. |
| BS | Beynəlxalq standart |
| ISO - (International Organization for Standardization) | Standartların verilməsi ilə məşğul olan beynəlxalq standartlaşdırma təşkilatı. |
| Daxili keyfiyyəti təminatı üzrə komissiya (DKTK) | Universitetin daxili keyfiyyət təminatı sisteminin həyata keçirilməsini asanlaşdırmaq üçün yaradılmış idarəetmə forması. |

## 4. Komissiyanın funksiyaları

Universitetin müvafiq sahələr üzrə fəaliyyəti ilə "Keyfiyyət siyasətinə" və "Keyfiyyət fəaliyyəti üzrə rəhbərlik" arasında uyğunsuzluqlarının müəyyən edilməsi məqsədi ilə yoxlamaların aparılması və onların aradan qaldırılması üçün tövsiyələrin verilməsi.
Universitetin müvafiq sahələr üzrə fəaliyyətində yerli və beynəlxalq akkreditasiya və reytinq meyarlarına əsasən uyğunsuzluqlarının müəyyən edilməsi məqsədi ilə yoxlamaların aparılması və onların aradan qaldırılması üçün tövsiyələrin verilməsi.

Rəsmi məktublar və sosioloji araşdırmalar vasitəsilə əldə edilən təhsil və tibbi xidmətlərin keyfiyyətində müəyyən olunmuş uyğunsuzluqalrın aradan qaldırılması üçün tövsiyələrin verilməsi.

İnnovativ və aktiv tədris və qiymətləndirmə metodlarının tətbiq aktlarının tərtib olunması.

Maraqlı tərəfləri uyğunsuzluqları müəyyən edilməsində və onların aradan qaldırılması üçün tövsiyələrin verilməsində cəlb edilməsi.

5. **Komissiyanın vəzifələri**

**Davamlı təkmilləşdirmə**

Davamlı təkmilləşdirmə dedikdə, təkmilləşdirmə mexanizminin planlaşdırılması, planlaşdırılan tədbirlərin həyata keçirilməsi, həyata keçirilən tədbirlərin monitorinqi və qiymətləndirilməsi, zəruri hallarda isə korreksiyaedici tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi nəzərdə tutulur.

Universitetin keyfiyyət sahəsində siyasət və məqsədlərin müəyyən edilməsi, məlumatların təhlili, daxili qeyri-maliyyə auditlər və korreksiyaedici tədbirlər vasitəsilə KİS-in effektivliyinin artırılması.

ATU-nun KİS-nin nəzarət auditinin (DKTK) nəticələrinə görə uyğunsuzluğun aradan qaldırılması və tövsiyələrin yerinə yetirilməsi üzrə korreksiyaedici tədbirlər planını tərtib etmək.

KİS-in təhlilinin nəticələrinə əsasən tədbirlər planını tərtib etmək.

Tətbiq aktlarını təsdiq etmək.

***Uyğunsuzluqlar və Korreksiyaedici tədbirlər***

Uyğunsuzluqların idarə edilməsi və korreksiyaedici tədbirlər proseduru aşağıdakı tələblərə uyğun olaraq həyata keçirilir:

- SKP “Uyğunsuzluqların idarə olunması”
- SKP “Korreksiyaedici tədbirlərin idarə edilməsi”.

6. **Komissiyanın hüquqları**

Auditoriyalara maneəsiz daxil olaraq tədris prosesinə müşahidə etmək.

Maneəsiz elmi-tədqiqatların, tədrisin, tibbi xidmətlərin və digər sahələrin keyfiyyətli həyata keçirilməsində resursların mövcudluğu və əlçatanlığı ilə tanış olmaq.

Komissiyanın fəaliyyətini həyata keçirmək məqsədi ilə müvafiq struktur bölmələrdən lazımi sənədlərin təqdim olunmasını tələb etmək.

Müəyyən edilmiş uyğunsuzluqların aradan qaldırılması üçün verilmiş tövsiyələrin həyata keçirilməsi vəziyyəti ilə tanış olmaq.

Uyğunsuzluqların aradan qaldırılması üçün verilmiş tövsiyələr həyata keçirilmədiyi halda, müvafiq struktur bölmə rəhbərinə qarşı inzibati tənbeh görülməsi məqsədi ilə Universitet rəhbərliyinə raport ilə müraciət etmək.

7. **Məsuliyyət**

Komissiya öz işinin təşkili və qəbul etdiyi qərarların qərəzsiz, ədalətli, şəffaf olmasına cavabdehlik daşıyır.

8. **Komissiyanın tərkibi və fəaliyyətinin təşkili**

Komissiyanın tərkibi 5 nəfərdən ibarətdir.

Komissiyanın tərkibi rektorun əmri ilə təsdiq edilir.

Komissiyanın tərkibinə daxildir: sədr, katib, üzvlər və komissiya iclaslarına dəvət olunmuş maraqlı tərəflər.

Şöbə mudiri komissiyanın sədridir.

Komissiyanın təşkil edilməsinin əsas prinsipləri aşağıdakılardır:

Komissiyanın fəaliyyətində Tərəflərin könüllü iştirakı;

Tərəflərin hüquq bərabərliyi;

Tərəflərin müstəqilliyi;

Komissiyanın təşkil olunması zamanı namizədlərin hüquq, akademik, elmi, klinik və idarəçilik təcrübələri nəzərə alınır.

Komissiya iclaslarında qərarlar açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir.

Komissiyanın iclasları 2 aydan bir keçirilir və kargüzarlıqda müəyyən edilmiş sənədlər tərtib olunur.

Komissiyanın fəaliyyət planını şöbə müdiri təsdiqləyir.

Komissiya öz fəaliyyəti barədə yarımillik və illik hesabatları Universitetin rektoruna təqdim edir.

9. **Yekun müddəalar**

**9.1.** Bu Əsasnaməyə əlavə və dəyişikliklər Elmi Şuranın qərarı və rektorun əmri ilə təsdiqlənir;

**9.2.** Bu Əsasnamə rektorun əmri ilə təsdiq edildiyi tarixdən qüvvəyə minir.

10. **Razılaşdırma vərəqi**

| № | Sənədin redaksiyası | Qüvvədə olma müddəti | Struktur bölmənin adı | Vəzifə | ASA | Tarix | Razıyam | Razı deyiləm | Razı olmama səbəbi barədə qeyd |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |

## 11. Sənəddə dəyişikliklərin edilməsi barədə qeydiyyat vərəqəsi

| № | Səhifənin nömrəsi | | | Dəyişikliklərin əsaslandırılması | İmza | S.A.A. | Qüvvəyə minmə tarixi |
|---|---|---|---|---|---|---|---|
| | Dəyişilmiş | yeni | Ləğv olunmuş | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |